# Arif Məlikov - 85

*Azərbaycan bəstəkarlıq məktəbinin böyük sənətkarı*

Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış simalarından olan Azərbaycanın xalq artisti, Dövlət mükafatı laureatı, "İstiqlal" ordenli, akademik Arif Məlikov özünəməxsus yaradıcılıq yolu ilə musiqi tariximizdə böyük uğurlar qazanıb. Yaratdığı əsərləri ilə Azərbaycan sərhədlərini aşaraq, milli musiqimizin əzəmətini, qüdrətini dünya musiqisevərlərinin diqqətinə çatdırıb. Odur ki, bu isim dünya musiqisevərlərinə yaxşı tanışdır. Öz əsərlərində milli musiqi ənənələrini XX əsr musiqisinin nailiyyətləri ilə birləşdirərək, mütərəqqi təfəkkürə malik sənətkar kimi çıxış edən A.Məlikovun yaradıcılığı Azərbaycan musiqi mədəniyyətində parlaq bir hadisə kimi böyük maraq kəsb edir. Dərin və fəlsəfi məzmunlu əsərləri ilə böyük səhnələrə yol açmış, zəngin təəssürat yaradaraq, yüksək musiqi duyumu olan insanları öz yaradıcılıq dünyasına cəlb edə bilmişdir. 85 illik yubileyini qeyd edən sənətkarın yaradıcılıq qalereyasını təşkil edən müxtəlif növ musiqi əsərələri diqqətdən kənarda qalmamış, dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Bu günlərdə isə, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə, Arif Cahangir oğlu Məlikovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Bu, bəstəkarın sənət dünyasına olan daha bir diqqət və dəyərdir.

1960-ci ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını Qara Qarayevin bəstəkarlıq sinfi üzrə bitirən sənətkar həmin ildən bu sənət məbədində dərs deməyə başlamış, hazırda da orada professor və bəstəkarlıq kafedrasının müdiri kimi çalışır.

Sənətşünaslar Arif Məlikov yaradıcılığının təbiətinə görə, simfoniyaçı kimi qiymətləndirirlər. A.Məlikovun əsərləri onun yeni formalar, yeni konstruktiv yollar axtarışını əks etdirməklə, müəllifin yaradıcılığının genişmiqyaslı olduğunu və rəngarəngliyini nümayiş etdirir.

A.Məlikovun əsərləri dünyanın bir çox ölkələrində - Rusiya, ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya, Türkiyə, Braziliya, Avstriya, Norveç, Finlandiya, İtaliya, Misir, Tailand, Yuqoslaviya, Bolqarıstan, Ruminya, Macarıstan, Çexiya, Slovakiya, Polşa, Almaniya, Özbəkistan, Qazaxıstan, Moldova, Ukrayna və Gürcüstanda ifa olunmuşdur.

26 yaşında ikən görkəmli türk şairi Nazim Hikmətin librettosu əsasında yazdığı ilk böyük əsəri - "Məhəbbət əfsanəsi" baleti Arif Məlikova dünya şöhrəti qazandırdı. Milyonlarla insanların məhəbbətini qazanmış "Məhəbbət əfsanəsi" 1961-ci ildən bu günədək dünyanın, demək olar ki, bütün tanınmış teatr səhnələrində tamaşaya qoyulmuşdur. Bəstəkarın hələ gənc yaşlarında yazdığı, dünyanın 60-dan çox ölkəsinin səhnəsini gəzən "Məhəbbət əfsanəsi" baleti A.Məlikovun dünya səviyyəsində dəyərli və təkrarolunmaz bir şəxsiyyət olduğunu göstərdi. Məşhur bəstəkar Dmitri Şostakoviç "Məhəbbət əfsanəsi" baleti haqqında dəyərli fikirlər söyləyərək demişdir: "Arif Məlikov istedadlı bəstəkardır. Musiqisi əsl professionaldır. Onun əsərində dərin musiqi dramaturgiyası, daxili inkişaf, dəqiqlik, qəhrəmanların xarakterini yüksək səviyyədə ifadə etmək məziyyətləri vardır. Orkestrin idarə edilməsində Arif Məlikovun nadir istedadı musiqiyə rəngarənglik və tamaşaçılara məftunluq gətirib".

Bəstəkarın sonrakı yaradıcılıq uğurlarından biri özbək yazıçısı Ş.Rəşidovun "İki qəlbin kitabı" əsəri əsasında yaratdığı "İki qəlbin poeması" baleti olmuşdur. Rəqqasə Komde və müğənni Modan haqqındakı Qədim Şərq əfsanəsi baletdə əsl fəlsəfi ümumiləşdirmə zirvələrinə qaldırılaraq, sənətin əbədliliyinin və qüdrətinin rəmzinə çevrilmişdir.



Zəngin irsə malik olan sənətkar balet və simfoniyalar, monumental vokal-orkestr əsərləri, kamera-instrumental əsərlər, kino və dram tamaşalarına musiqi, romans və mahnılar, fortepiano silsilələri, operettalar yaradaraq, bütün bu janrlarda olduqca orijinal və özünəməxsus şəkildə çıxış edir.

A.Məlikov, eləcə də, kinofilmlərə və teatr tamaşalarına ən çox musiqi yazan bəstəkar kimi də səciyyələndirilir. "Sehrli xalat", "Ulduzlar sönmür", "Rüstəm və Söhrab", "Axırıncı aşırım", "Qərib cinlər diyarında" kimi filmlərə, "Natəvan", "Atabəylər" tamaşasına, 5 seriyalı "Şahnamə" filminə yazdığı musiqi bu film və tamaşaların müvəffəqiyyət qapısını açan açarlarından biridir. Bəstəkar, ümumilikdə, 30-a qədər filmin musiqisinin müəllifidir.

A.Məlikovun həyatında da musiqi ilə bərabər, rəngkarlıq sənəti xüsusi yer tutur. Hətta onun rəssamlıq sevgisi uşaq yaşlarında rəsm texnikomuna daxil olmaq həvəsi də yaradır. Fövqəladə istedad sahibi, yaradıcı şəxs kimi, A.Məlikovun zəngin təxəyyülü onun hər dəfə rənglər dünyasına səyahətinin özünəməxsus dərin fikir və fəlsəfi baxışları ilə süslənmiş əsərlərlə nəticələnməsinə səbəb olub. "Çiçəkli badam ağacı", "Şərq", "Ankarada gecə", "Xəzərin qara qızılı - aylı gecə", "Aya Sofiya", "Badam ağacının budağı", "3 hissəli simfoniya-triptix", "Zuqulba", "Təəssürat", "Fantaziya", "Təzəpir - gecə", "Təzəpir - gündüz", "Təzəpir - Novruz bayramı", "Qafqaz dağları", 20 Yanvar", "Keçmişə baxış - diptix" , "Bakı", "Əbədiyyət","Günəş", "Həyat", "Göy vaza", "Vazada güllər", "Qərənfillər", "Ağ vaza", "Əks", "Sevimli şəkillər" kimi rəsmlərinin adlarını çəkə bilərik. Rəsmlərinin əsas mövzusunun təbiət, çiçəklər, tarixi abidələr və abstrakt mövzular olduğu deyilsə də, musiqi dünyasındakı kimi, onun rənglər aləmində də mövzuları bir-birindən fərqli, müxtəlif və rəngarəndir.

A.Məlikovu Azərbaycan musiqi mədəniyyətinin həm tarixi, həm də canlı müasiri kimi səciyyələndirirlər. Sərhədləri aşan musiqi dünyasının sevgisindən dini və dili fərqli insanlar mənən zövq alır.

**Zümrüd BAYRAMOVA**